შეფასებისა და გამოცდების ეროვნული ცენტრი

# Təsviri və tətbiqi incənət üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Praktiki tapşırığa praktiki tapşırığa məxsus olan vərəqdə əməl edin. Praktiki tapşırığa (tapşırıq 26) əməl etmək üçün sizə karandaş, yazıpozan və karandaş itiləyən lazımdır.

Praktiki tapşırıq üçün lazım olan vərəqədə karandaşla işləyin! Karandaşdan yalnız bu tapşırığa əməl etmək üçün istifadə olunmasına yol verilir.

Testin maksimal xalı 60-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**№ 1-19 tapşırığın təlimatı** (Hər düzgün cavaba 1 bal verilir) - Hər tapşırığa dörd ehtimallı cavab verilir. Onlardan yalnız biri düzdür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında –X işarəsini yazın. Elektron proqram başqa heç bir qeydi, şaquli və ya üfüqi xətləri, müxtəlif işarələri qəbul etmir. Əgər siz cavablar vərəqində qeyd etdiyiniz cavabı yenidən düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütünlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Rənglədiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür.

(1) **1. Kinetik heykəl hansı üçölçülü fiqura deyilir?**

ა) Boş məkanla əhatə olunana;

ბ) Hərəkət edən detalları olana;

გ) Divarın müstəvisində  çıxıntısı olana;

დ) Bürüncdən tökülənə.

(1) **2. Hansı bədii üsulun inkar edilməsi heykəlin „yıxılmasına” səbəb olacaq?**

ა) Hərəkətin;

ბ) Bütünlüyün;

გ) Tarazlığın;

დ) Əsas hissəsinin fərqlənməsinin.

(1) **3. Ravennadakı San Vitale məbədi hansı memarlıq üslubuna/dövrünə aiddir?**





ა) Roman;

ბ) Bizans;

გ) Qotik;

დ) İntibah.

(1) **4. Sadalanan abidələrdən hansının yuxarıdan görünüşü şəkildə təqdim olunmuşdur?**



ა) Müqəddəs Madlen məbədi;

ბ) Karakalla hamamları;

გ) Marselin teatrı;

დ) Roma panteonu.

(1) **5. Yaradıcılıq fəaliyyəti ərzində Brankuşi uçan quşu təsvir edən bir sıra heykəllər yaratmışdır. Sizcə, heykəltəraşı nə ilhamlandırırdı?**







ა) Öz əsərlərində işlənmiş ideyalara;

ბ) Başqa rəssamların yaratdığı əsərlərin öyrənilməsinə ;

გ) Gözün hərəkət edən obyekti necə qəbul etməsi təcrübəsinə;

დ) İşıqlama ilə birlikdə təsvirin dəyişməsinə.

**(1) 6. İllüstrasiyada hansı Niderland rəssamının sənət əsərinin müasir şərhi təqdim olunmuşdur?**



ა) Yan Vermeerin;

ბ) Rembrandt van Reynin;

გ) Van Qoqun;

დ) Piet Mondrianın

**(1) 7. Marina üslublu saxsı qabların səthində nə səhnələri təsvir olunmuşdur?**

ა) Şəhər;

ბ) Faunanı əks etdirən;

გ) Dəniz;

დ) Floranı əks etdirən.

**(1) 8. İncəsənət əsərlərində rəssamlar müəyyən həyat meylləri və ya qaydalarının təzahürü anını qeyd edirlər. Marinus van Reimersvallenin aşağıda təqdim olunan "Sərraf və həyat yoldaşı" rəsm əsəri on altıncı əsrin flamand cəmiyyətinin hansı xüsusi ifadə edir?**



ა) Gender bərabərsizliyini;

ბ) Maarifçiliyin ideoloji təsirini;

გ) Merkantilizmin tətənəsini;

დ) Cəmiyyətin sinfi təbəqələşməsi.

(1) 9. Təqdim olunan nümunələrdən hansı Qacar sənətinə aiddir?

ა)



ბ)



გ)



დ)



**(1) 10. Hansı uyğunluq düzgündür?**

ა) Ekspressionizm - formaların  fərqləndirilməsi vasitəsilə dünyanın real şəkildə əks olunması;

ბ) Ekspressionizm - formaların fərqləndirilməsi vasitəsilə hisslərin kəskin şəkildə əks olunması;

გ) Ekspressionizm – dünyanın dolayı, təmsili şəkildə əks olunması;

დ) Ekspressionizm – dünyanın mistik şəkildə əks olunması.

**(1) 11. Mark Şaqalın həm aşağıdakı təqdim olunan şəkildə, həm də onun bütün yaradıcılığında mövzu və surətlərinin əksəriyyətinin əsası nədir?**



ა) Salvador Dalinin və digər sürrealistlərin əsərləri;

ბ) Uşaqlığını keçirdiyi yerlə bağlı xatirələr;

გ) Ziqmund Freyd rəssamə cəlb etdiyi nəzəriyyələri;

დ) Rəssamın faciəli taleyini müəyyən edən sevgi tarixi.

(1) 12. Təqdim olunan saxsı nümunələrindən hansı qədim Çinə aiddir?

ა)



ბ)



გ)



დ)



(1) 13. Aleksandr Kolderin yaratdığı portret üçün hansı bədii xüsusiyyət *xarakterik deyil?*



ა) Qrafik eskiz kimi cəlb edicidir;

ბ)Məkanda qrafik təsvir yaratmaq üçün məftildən istifadə olunmuşdur;

გ) Bədii eksperiment portret xarakteristikasının ustalıq vasitəsinə çevrildi;

დ) Dinamizmi gücləndirmək üçünhərəkəti bildirən detallardan istifadə olunmuşdur.

**(1) 14. Sadalanan xüsusiyyətlərdən hansı İntibah və Orta əsrlər rəssamlığını xarakterizə edir?**

ა) Xristianlıq mövzuları və bədii surətlər geniş yayılmışdır;

ბ) Klassik mövzular dini mövzulardan daha aktualdır;

გ) Perspektiv haqqında biliklərdən fəal istifadə edilir;

დ) İşıq və kölgə ilə formaların modelləşdirilməsindən fəal istifadə edilir.

**(1) 15. Hansı rəssamlar rənglərin əlaqəsi və ya qarşılıqlı təsirinin onların bədii keyfiyyətlərini artırmaq/aşkar etmək və daha aydın dərk etmək imkanını müəyyən edən metoddan,Yozef Albersin təqdim olunan bədii kompozisiyası kimi, istifadə edir?**



ა) Vasili Kandinski və Mark Rotko;

ბ) Maurice Escher və Cekson Pollok;

გ) Pit Mondrian və Eqon Şile;

დ) Xuan Miro və Mikelancelo.

**(1) 16. Təqdim olunan müddəalardan hansı Gelati məbədinin narteksinin XII əsrə aid Ümumdünya Kilsə Yığıncaqlarını əks etdirən təsvirindəki bədii xüsusiyyətə uyğun gəlmir?**




ა) Fiqurların təsvirləri monumental, üzləri ifadəlidir;
ბ) İnsan qrupları ayrıca toplanmışdır və digər qruplardan aydın şəkildə ayrılır;
გ) Ateni Sionunun divar rəsmləri ilə yaxınlıq müşahidə olunur, lakin rəsm daha plastikdir;
დ) Divar rəsmin tarixi əsası yoxdur.

(1) 17. Təqdim olunan kompozisiyada əsas bədii üsullardan hansı üstünlük təşkil edir?



ა) Dinamika;

ბ) Ritm;

გ) Assimetrik balans;

დ) Elementlərin təkrar olunması.

**(1) 18. Rembrandtın "Gecə gözətçisi"  rəsm istifadə olunmuş kəskin kontrast nəyə xidmət edir?**



ა) Ritmik dəyişikliyi yaratmaq üçün formaların təkrarlanmasını vurğulamağa;

ბ) Emosional səslənməni artırmaq üçün işıqlandırma effektinin yaradılmasına;

გ) Həcmin illüziyasını artırmaq üçün rəng qradasiyasının yaradılmasına;

დ)Kompozisiya tarazlığının yaradılması üçün kiçik elementlərin böyük formatda təşkil edilməsi.

(1) 19. Hansı müddəa təqdim olunan memarlıq abidəsinin xüsusiyyətlərinə *uyğun gəlmir*?



ა) Abidə postkonstruktivizm üslubunun brutalizm elementləri olan nümunəsidir;

ბ) Abidənin konstruksiyası möhkəmliyə tam zəmanət verə bilməz;

გ) Fasadlarda pəncərələrin minimalist həndəsi formaları abidənin dekorativ tərtib sistemini yaradır;

დ) Tikilinin memarlıq konstruksiyası kiçik torpaq sahəsində böyük əraziyə malik bina yaratmaq imkanı verir.

**№ 20-25 tapşırıqlar** ***„Düzgündür-səhvdir“***

**Tapşırığın təlimatı** – verilmiş müddəalarla diqqətlə tanış olun - əgər müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı işarələyin. Belə hallarda şərh tələb olunmur. Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı qeydə alın və verilmiş sahədə düzgün ifadəni  yazın.

**Qeyd:** əgər ifadənin  səhv olduğunu düşünür və sübutda verilən izahın düzgün formalaşdırıldığını hesab edirsinizsə, lakin verilmiş terminin və ya sözün izahı yoxdursa, izahı dəyişməyin və həmin izahat üçün müvafiq termin və ya söz yazın.
**Nümunə:**



20. Qotika Orta əsrlər dövrünə aiddir.

**21. Şəkildə dekorativ-tətbiqi sənət nümunəsi təqdim olunmuşdur.**



**22. Pandus pilləli yoxuşa deyilir**

23. Amfora qədim yunan keramika rəssamlığının həndəsi üslubudur.

24. Perspektiv baxış nöqtəsi deyil.

25. Papa X İnnokentinin portretini Karavacco yaratmışdır.



(7) **№ 26 tapşırıq.** ***Praktiki iş*** **Təlimat:**

Fotolarda təqdim olunan əşyalarla – kağız, paket və armudların təsvirləri ilə bir natürmort yaradın. Kompozisiyanın paylanma prinsipini nəzərə alaraq təsviri şəkil müstəvisinə yerləşdirin; əşyaların müvafiq proporsiyalarına riayət edin, onlara faktura və həcm verin; düşən kölgələri çəkərkən işığın istiqamətini müəyyənləşdirin.

Tapşırığı praktik iş üçün nəzərdə tutulmuş kağız üzərində yerinə yetirin.





(1) **№ 27-29 tapşırıq.**
***Xronologiyanın müəyyənləşdirilməsi***

**Tapşırığın təlimatı** – Bədii cərəyanları, rəssamların adlarını, memarlıq və təsviri incəsənət əsərlərini onların yaradıldığı zamana əsasən sıralayın (qədimdən ən yeniyə doğru). Cavabları cavablar vərəqindəki cədvələ yazın. Nəzərə alın ki, cədvəldə yalnız seçilmiş vahidin müvafiq rəqəmi yazılır.

| (1) **27. Adəm və Həvva mövzusu haqqında yaradılan incəsənət nümunələrini xronoloji ardıcıllıqla düzün.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |

(1) **28. İncəsənət nümunələrini yaradılma tarixlərini xronoloji ardıcıllıqla düzün.**

| 1. | 2. | 3. | 4. |
|---|---|---|---|
|  |  |  |  |

| (1) **29. Yaradılan incəsənət nümunələrini yaranma tarixinə əsasən xronoloji ardıcıllıqla sıralayın.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |

(3) **№ 30 tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi*** **-** B sətrində verilən incəsənət nümunələri ilə A sətrində sadalanan ölkələr arasındakı uyğunluqları müəyyən edin. Nəzərə alın ki, bir ölkəyə yalnız bir nümunə uyğun gəlir.

<table>
<tr><td>A</td><td colspan="2">1. Misir</td><td colspan="2">2. Yunanistan (Kiklad adaları)</td><td>3. Mesopotamiya</td></tr>
<tr><td>B</td><td>ა.<br></td><td>ბ.<br></td><td>გ.<br></td><td>დ.<br></td><td>ე.<br></td></tr>
</table>

(3) **№ 31 tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi*- B** sətrində təqdim olunan memarlıq elementləri ilə **A** sətrində verilən adlar arasındakı uyğunluqları müəyyən edin . Nəzərə alın ki, bir ada yalnız bir illustrasiya uyğun gəlir.

<table>
<tr><td colspan="3">A. 1. Tağ 2. Pilyastr 3. Arxitrav</td></tr>
<tr><td>B. ა. </td><td rowspan="2">გ. </td><td>დ. </td></tr>
<tr><td>ბ. </td><td>ე. </td></tr>
</table>

## Yazılı tapşırıqların təlimatı

Tapşırıqları diqqətlə oxuyun və onları dərk edin.
Yazı işi başa düşülən xətlə yazılmalıdır. Oxunması çətin olan hissələr düzəldilməyəcək və qiymətləndirərkən nəzərə alınmayacaq.
Hər iki yazılı tapşırıq təlimatla müşayiət olunur. Bu tapşırıqlara elə bir şəkildə cavab verməlisiniz ki, yazı işi məna cəhətdən bütöv, dərk edilmiş olsun və suallara ayrı-ayrılıqda verilən cavabların mexaniki cəmi olmasın.
Fikrinizi aydın, dəqiq və əsaslandırılmış şəkildə formalaşdırın. Yazı işi arqumentasiya (öz fikirlərini nümunələrlə əsaslandırmaq) və müstəqil düşünmə qabiliyyətini nə dərəcədə yaxşı göstərdiyinə görə qiymətləndiriləcəkdir.
Mülahizə məntiqi cəhətdən dəqiq aparılmalı, fikir aydın şəkildə ifadə edilməlidir.
Yazı işini cavablar vərəqinə köçürün.
Cavablar vərəqində buraxılmış səhvin üstündən xətt çəkin, onu nə mötərizəyə almayın, nə də qaralamayın.

(4) **№ 32 tapşırıq. Təqdim olunan qrafik şəkillər Lado Qudiaşvilinin "Satira qrafikası" (1940-cı illər) seriyasından olan alleqorik əsərləridir, onlarda rəssamın mövcud reallığa olan münasibəti aydın şəkildə görünür. Dörd əsərdən birini seçin, təhlil edin və müəyyənləşdirin:**

1.



2.



**3.**



**4.**



ა. Rəssam dövrün və ya ümumiyyətlə bəşəriyyətin hansı qüsurlu hadisəsinin və ya xüsusiyyətinin alleqoriyasını yaratmışdır? Əsərin məzmun və vizual uyğunluğunu müzakirə edin;

ბ. Əsərin bədii dilini xarakterizə edin və onun bədii obrazın xarakterini çatdırmağa kömək edib-etmədiyini izah edin.

(15) **№ 33 tapşırıq.** ***İncəsənət əsərinin təsviri-təhlili***

Aşağıda verilən incəsənət nümunəsini düşünün, təhlil edin və qiymətləndirin.



**Tapşırıqları göstərişlərə əsasən yerinə yetirin:**

**(3) 33.1** Kompozisiyanı təsvir və xarakterizə edin;verilən kompozisiya hansı janra aiddir; material və texnika əsasında rəsmin hansı incəsənət sahəsinə aid olduğunu müəyyənləşdirin;

**(3) 33.2** Şəkildə bədii obrazın xarakterini yaratmaq üçün müəllifin hansı təsvir vəsaitlərdən və üsullarından istifadə etdiyini təhlil edin və qısa şəkildə ümumiləşdirin;



**(3) 33.3** Bədii-üslubi xüsusiyyətlərə  əsasən cərəyanı müəyyənləşdirin; təqdim olunan incəsənət əsərinin hansı ölkəyə və dövrə məxsus olduğunu müəyyənləşdirin, müəllifi adlandırın.

**(3) 33.4** Əsəri qiymətləndirin – öz münasibətinizi bildirin, müzakirə edin və fikrinizi əsaslandırın;

**(3) 33.5** Təsirləri müzakirə edin, əsəri tarixi-mədəni və s. konteksdə təhlil edin.